## Xırda görünsə də...

# Paytaxt barelyefləri...

## *Biz hələ də sovet dövründəyik?*

**Dünyanın əksər ölkələrində məşhur dövlət, elm və incəsənət xadimlərinin, cəmiyyətdə tanınmış şəxslərin yaşadıqları evlərin, binaların divarlarında barelyef və qorelyeflər var ki, həmin lövhələrdən onlar haqqında qısa məlumat əldə etmək mümkündür. Ölkəmizdə, xüsusilə paytaxt Bakıda da belə bir ənənə var. Dövlət rəhbərinin sərəncamı ilə ölkə həyatının müxtəlif sahələri üzrə fərqlənmiş, fəaliyyəti örnək səciyyə daşıyan simaların xatirələrinə hörmət əlaməti olaraq belə abidələr inşa edilir. Paytaxtımızın mərkəzi küçələrini bəzəyən xatirə lövhələrinin hazırkı vəziyyəti necədir?**






Öncə qarşımıza Adil İsgəndərov küçəsində görkəmli partiya və dövlət xadimi Şıxəli Qurbanovun barelyefi çıxdı. Hər zaman Ş.Qurbanov barədə yalnız müsbət sözlər eşitmişəm. O, 1964-cü ildə keçmiş SSRİ-nin milli adət-ənənələri əzdiyi bir zamanda Novruz bayramını dövlət səviyyəsində keçirməklə, xalqımızın ürəyində əbədi sevgi qazanmış şəxsiyyətdir. Hələ də televiziyalar Novruz ərəfəsində efirə məhz həmin illərin bayram şənliklərindən fraqmentlər verirlər. Ş.Qurbanovun barelyefi düşündürücüdür. İctimai-siyasi xadimin gur saçları, nurlu siması, əlini başına qoyaraq nə isə düşünməsi obrazını gözəl tamamlayır. Lakin barelyefdəki qeydlərin hələ də kiril əlifbası ilə olması təəccüblüdür. 30 ildən çoxdur ki, əlifbamızı dəyişmişik. Ölkəmizdə köhnə əlifbadan xəbərsiz bütöv bir nəsil yetişib və...

Abdulla Şaiqin də barelyefi maraqlıdır. Sənət nümunəsi Azərbaycan prospektindəki binanın divarına vurulub. Lap uşaqlıqdan şeirlərini əzbərlədiyimiz görkəmli şairimizin də barelyefi adına-sanına layiqdir. Lakin üzərindəki yazıların oxunması kiril əlifbasını bilməyənlər üçün mümkünsüzdür.






Sözügedən prospektdə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin də evinin qarşısından keçdik. Üzeyir bəy, ölkəmizdə uşaqdan-böyüyə hər kəs tanıyır. Ən böyük əsərinin Dövlət himnimiz olduğunu isə xüsusi vurğulamalıyıq. Lakin təsadüfən buradan keçən kiril əlifbasından xəbərsiz gənc və yaxud yeniyetmə, bu evdə Üzeyir bəyin yaşadığını, çox güman ki, bilməyəcək. Bu baxımdan, böyük şəxsiyyətin barelyefinin qeydlərinin də Azərbaycanın rəsmi əlifbasına uyğunlaşdırılması zəruridir. Onu da deyək ki, qeydlər iki dildədir. Burada rus dilindən daha çox, ingilis dilinə üstünlük verilməsi məqsədəuyğun olardı. Hər halda ingilis dili hazırda daha populyardır.

Xalq yazıçısı Mehdi Hüseynin də əzəmətli barelyefi diqqətimizi çəkdi. Böyük yazıçı ilə bağlı Neftçilər prospektindəki sənət nümunəsinə diqqət yetirdikdə, elə zənn etdik ki, bizi salamlayır. Lakin burada da tanıtımın kiril əlifbasında olması ovqatımızı təlx etdi.

Biz, həmçinin, akademik Mirəli Qaşqay, akademik Yusif Məmmədəliyev və xalq şairi Hüseyn Arifin yaşadığı binalara vurulmuş barelyefləri nəzərdən keçirdik və orada da əlifba yanlışlığının şahidi olduq. Elə təəssürat yarandı ki, adlarını çəkdiyimiz dühaların xatirələrinin əbədiləşdirilməsi ilə bağlı görülmüş bütün işlərə imza atan keçmiş Sovetlər Birliyidir. Bu adamlara müstəqillik illərində heç bir hörmət qoyulmayıb. Bəli, hörmət qoyulmayıb ki, heç kəsin, yəni əlaqədar qurumların yadına, yumşaq desək, yanlışlığı aradan qaldırmaq düşməyib. Axı, bu işlə məşğul olmalı olanlar var. Digər tərəfdən, belə təəssürat yaranır ki, müstəqillik illərində tarixi simalar heç kəsin yadına düşməyib. Bu, daha pis...

Elə bunu düşünürdük ki, qarşımıza, nəhayət, latın əlifbası ilə yazılmış barelyef çıxdı. Bu, Neftçilər prospektində Fransanın məşhur siyasi xadimi, xalqının alman faşizminə qarşı müqavimətinə başçılıq etmiş Şarl De Qollun barelyefidir. Az qala sevinmişdik ki, yenə məyusluqla üzləşdik. Gördük ki, latın qrafikalı Azərbaycan əlifbası ilə təqdimatda səhvlər var. Barelyefdə yazılıb: Fransa Mü(g)avimət Hərəkatının başçısı General De Qoll 1944-cü ilin noyabr və dekabr aylarında bu evdə ga(l)mışdır. Bir cümləlik təqdimatda iki səhv təəccüb yox, çox pis mənada heyrət doğurur.



Bəli, şəhərimizdə barelyeflərin olması təqdirəlayiqdir. Amma göstərdiyimiz problemlər aradan qaldırılsa, görkəmli şəxsiyyətlərə hörmət və ehtiram anlamında daha dolğun mənzərənin şahidi olarıq. Nəzərə alaq ki, qaldırdığımız bu məsələ həm də ana dilimizə münasibətin göstəricisidir.

***Nəriman HƏSƏNZADƏ,***
***"Xalq qəzeti"***